# Ədəbiyyat

1. Biri M.Ə.Sabirin yaradıcılığına aid deyil:
   - Kiçik hekayənin böyük ustadı hesab olunurdu
   - Tənqidi realizm ədəbi cərəyanının nümayəndəsidir
   - "Səttarxana" şeirini ictimai mövzuda yazıb
   - Satirik poeziyada tipi öz dilində danışdırmaq Sabir yaradıcılığına aiddir
   - Yaradıcılığında dini mərsiyələr, lirik şeirlər, satiralar, felyetonlar müəllifidir
2. M.Ə.Sabirin satirik əsərlərinin ruhuna uyğundur:
   - tərənnüm
   - kinayə
   - siyasətdən uzaq olmaq
   - sözü ehtiyatla demək
   - maarifçilik
3. Bu sənətkarlar Azərbaycan ədəbiyyatında uşaq şeirinin əsas yaradıcıları kimi tanınırlar: 1.A.Səhhət, 2.A.Şaiq, 3.M.Hadi, 4.Ə.Nəzmi, 5.M.Ə.Sabir, 6.H.Cavid.
   - 1,3,5
   - 3,4,6
   - 2,5
   - 1,2,5
   - 2,4
4. M.Ə.Sabir "Neylərdin, İlahi?!" satirasında hansı mövzunu irəli sürmüşdür?
   - Bakı küçələrinin bərbad vəziyyətini üzə çıxarmaq
   - Təbriz inqilabçılardan olan Səttarxanın mübarizəsi
   - Təhsilin, tərəqqinin əleyhinə olanları ifşa etmək
   - Cəhaləti və cəmiyyətdəki haqsızlığa qarşı etiraz səsi
   - Bakı fəhlələrinin vəziyyətini göstərmək
5. Məntiqi ardıcıllığı tamamlayın . "Qara Qənbər", "Firuzə", ......... .
   - "Qız qalası"
   - "Əhməd və Qumru"
   - "Aslan və Fərhad"
   - "Mənsur və Sitarə"
   - "Papaq"
6. C.Məmmədquluzadə "Çay dəstgahı" dramını nə vaxt və harada yazmışdır?
   - 1887-ci ildə, Nehrəm kənd məktəbində müəllim işləyərkən
   - 1889-cu ildə, Baş Noraşendə müəllim işləyərkən
   - 1892-ci ildə, Nehrəm kənd məktəbində müəllim işləyərkən
   - 1892-ci ildə, Nehrəm kənd məktəbində müəllim işləyərkən
   - 1894-cü ildə, Baş Noraşendə müəllim işləyərkən
7. R.Rza "Qızılıgül olmayaydı" poemasını kimə həsr etmişdir?
   - C.Cabbarlıya
   - M.Müşfiqə
   - M.Hadiyə
   - M.Şəhriyara
   - S.Vurğuna

8. İ.Əfəndiyevin hansı dram əsərlərində konfliktsizlik nəzəriyyəsinin prinsipləri özünü göstərir? 1.“Atayevlər ailəsi”, 2.“Şeyx Xiyabani”, 3.“Bahar suları”, 4.“İşıqlı yollarda”, 5.“Unuda bilmirəm”, 6.“İntizar”, 7.“Büllur sarayda”.
   - 2,4,7
   - 1,2,5
   - 3,4,6
   - 2,5,6
   - 1,3,7
9. “Bəzi adamların batini kirini təmizləmək əlimdən gəlmir. Zahiri kirini təmizləməyə çalışıram”. -M. Ə. Sabir bu ifadələri hansı peşəsinə görə işlətmişdir?
   - müəllim
   - sabun bişirmək
   - həkim
   - şair
   - bənna
10. Biri C.Məmmədquluzadənin “Anamın kitabı” tragikomediyasının personajları sırasında verilə bilməz.
    - Səməd Vahid
    - Aslan bəy
    - Zivər xanım
    - İsgəndər bəy
    - Gülbahar
11. Biri C.Cabbarlı yaradıcılığına aid edilə bilməz:
    - satirik şeirlər
    - pyes
    - lirik şeirlər
    - hekayə
    - povest
12. “Oqtay Eloğlu” əsərindəki Firəngiz surəti ilə bağlı səhv cavabı göstərin:
    - Firəngizi bədbəxt edən mühitdir
    - Aslan bəy Firəngizi şəxsi mənafeyinə qurban verir
    - O səhnəyə can atan ilk qaranquşdur
    - Firəngiz Oqtaydan kasıb olduğu üçün ayrılır
    - Firəngizin ölümü həqiqət axtaran Oqtayın əsl həqiqəti üzə çıxarmaq cəhdidir
13. C.Məmmədquluzadənin tərcümeyi-halına dair verilənlərdən biri səhvdir:
    - 1882-1887-ci illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır
    - 22 fevral 1869-cu ildə Naxçıvanda anadan olmuşdur
    - 1933-cü ildə vəfat edir və Naxçıvanda dəfn olunur
    - Müəllimliyə 1887-ci ildə İrəvan quberniyasının Uluxanlı kəndində başlamışdır
    - 1897-1903-cü illər arasında Naxçıvan və İrəvan hüquq orqanlarında fəaliyyət göstərmişdir
14. Mir Cəlalın bu hekayələrindən birində xaricpərəstlik tənqid olunur:
    - “Şaftalı söhbəti”
    - “Qonaqpərəst”
    - “İclas qurusu”
    - “Pillələr”
    - “İnsanlıq fəlsəfəsi”
15. Azərbaycan ədəbiyyatında sərbəst vəzn onun adı ilə bağlıdır.
    - C.Cabbarlı
    - S.Vurğun
    - R.Rza

- S.Rüstəm
- M.Müşfiq

16. M.C.Paşayevin bu romanı yazıçının avtobioqrafik romanı hesab olunur:
    - “Yolumuz hayanadır”
    - “Açıq kitab”
    - “Təzə şəhər”
    - “Dirilən adam”
    - “Yaşıdlarım”
17. Ə.Cavadın “Səsli qız” əsərinin məzmunu ilə bağlı yanlış fikri müəyyən edin.
    - Sara həm nişanlısının, həm də xalqın qisasını alır
    - Qalib hökmdar məğlub ölkənin matəminə hörmətlə yanaşmır.
    - Saranın oxuduğu mahnıda ölkənin işğalçılara qarşı kini ifadə olunur.
    - Ölkədəki bəzi vəzifə sahibləri qalib hökmdara yaltaqlanır.
    - Sara ölümdən xilas olmaq üçün hökmdarın məclisində şərab paylamağa razılıq verir.
18. H.Cavid hara sürgün edilir?
    - Aşqabada
    - Türkiyəyə
    - Sibirə
    - Qırğızıstana
    - İrana
19. Hansı əsərlərdə M. Şəhriyarın nakam məhəbbəti təsvir olunmuşdur? 1.“Gözüm aydın”, 2.“Həzin nalələr, 3.“Dəli Pəri”, 4.“Döyünmə-söyünmə”, 5.“Odda yanan pərvanə”, 6.“El bülbülü”.
    - 3,4,5
    - 1. 2,4
    - 2,3,6
    - 1,2,6
    - 2,3,5
20. İ.Əfəndiyevin tarixi mövzuda olan pyeslərini göstər: 1.“Mahnı dağlarda qaldı” 2.“Atayevlər ailəsi”, 3.“Şeyx Xiyabani”, 4.“Hökmdar və qızı”, 5.“Məhv olmuş gündəliklər”, 6.“Büllur sarayda”.
    - 2,4,5
    - 2,5,6
    - 1,3,6
    - 1,3,4
    - 3,5,6
21. “Anamın kitabı” tragikomediyasında qardaşları birləşdirən cəhət:
    - Vətənpərvər ziyalı olmaları
    - Maraqlandıqları elm sahələri
    - Geyindikləri geyimləri
    - Ana dilinə xor baxmaları
    - Müstəqil Azərbaycan dövləti qurmaq istəmələri
22. Satirik publisistikanın banisi kimdir?
    - C.Məmmədquluzadə
    - M.Ə.Sabir
    - H.Cavid
    - Ə.Cavad
    - S.Vurğun
23. Məntiqi ardıcıllığı tamamlayın: H.Cavid, Ə.Cavad, Ö.F.Nemanzadə ......... .
    - Ə.Vahid
    - S.Vurğun

- N.Xəzri
- S.Tahir
- M.Müşfiq

24. Azərbaycan sovet ədəbiyyatının 20-30-cu illərinə xas olan xüsusiyyətləri müəyyən et: 1.Kommunist ideologiyası milli məfkurəyə qarşı qoyulmuşdu. 2.Ədəbiyyatda vətənpərvərlik hissləri təbliğ olunur, türkçülük, milli dövlətçilik tərənnüm olunurdu. 3.Bakıda yaradılan “Qızıl qələmlər” cəmiyyəti gənc yazıçılardan ibarət idi və yaşlı nəslə qarşı qoyulurdu. 4.1928-ci ildə yaradılmış Azərbaycan Yazıçılar Cəmiyyəti bütün nəsillərdən olan yazıçıları sovet ideologiyası ətrafında birləşməyə çalışırdı. 5.Azərbaycanın milli varlığının təsdiqi uğrunda mübarizə ön plana çəkilirdi.
    - 2,4,5
    - 1,3,4
    - 1,2,4
    - 2,3,5
    - 1,4,5
25. S.Vurğunun şeir kitabları hansılardır? 1.“Azad ilham”, 2.“İstiqbal təranəsi”, 3.“Könül dəftəri”, 4.“Fanar”, 5.“Şairin andı”.
    - 1,3,4
    - 3,4,5
    - 1,2,4
    - 2,3,5
    - 1,4,5
26. R.Rzanın bu bu kitabına toplanan əsərləri nəsrlə yazılmış hekayə, oçerk və povestlərdən ibarətdir:
    - “İntiqam!... intiqam!....”
    - “Mən torpağam”
    - “Çinar”
    - “Qəzəb və məhəbbət”
    - “Qanadlar”
27. B.Vahabzadə bu əsərini “Kitabi-Dədə Qorqud” motivləri əsasında yazmışdır:
    - “Özümüzü kəsən qılınc”
    - “Yollara iz düşür”
    - “İkinci səs”
    - “Xəzan bülbülü”
    - “Dar ağacı”
28. R.Rzanın “Qızılıgül olmayaydı” poemasında M.Müşfiqin bir məclisdə oxuduğu hansı şeirin adı çəkilir?
    - “Oxu tar”
    - “Küləklər”
    - “Bir may”
    - “Günün səsləri”
    - “Vuruşmalar”
29. C.Məmmədquluzadənin “Anamın kitabı” əsəri ilə bağlı doğru fikirləri müəyyən edin: 1.Qardaşları xalqın taleyi narahat edir. 2.Qardaşlar anaları Zəhrabəyimin arzusuna uyğun olaraq ali təhsil almışdır. 3.Əsərdə müstəqillik, milli birlik, soykökünə bağlılıq məsələləri qaldırılmışdır. 4.Müstəqil Azərbaycan hökuməti ideyası ilə bağlı çar hakimiyyətinin narahatlığı ifadə edilmişdir. 5.Qardaşların əqidəsi Gülbahar üçün qəbuledilməzdir.
    - 2,4,5
    - 3,4,5
    - 1,4,5
    - 1,2,5
    - 2,3,4

30. Aşağıdakı şeirlərin birində M. Ə. Sabirin azadlıq duyğuları ifadə olunmuşdur.
- “Neylərdin ilahi?”
- “Amalımız, əfkarımız vətəndir”
- “Bizə nə”
- “Müəllimlər syezdi”
- “Qoyma gəldi”

31. H.Cavidin “İblis” mənzum faciəsində Mələk müharibənin baş vermə səbəbini kimdə görürdü?
- Elxanda
- Arifdə
- İblisdə
- Vasifdə
- İbn Yəmində

32. H.Cavidin nəsrlə yazılmış pyesləri hansıdır? 1.“Maral”, 3.“Şeyda” 5.“Afət”, 7.“Topal Teymur”, 2.“Uçurum”, 4.“Xəyyam”, 6.“İblis”,8.“Peyğəmbər”
- 1,2,6,8
- 2,3,4,5
- 1,3,5,7
- 3,4,7,8
- 1,4,5,6

33. Mir Cəlalın ibrətamiz öyüdlər təsiri bağışlayan hekayələri hansı bənddə verilib:
- “Söyüd kölgəsi”, “Qonaqpərəst”
- “Vicdan əzabı”, “Şaftalı söhbəti”
- “Ləyaqət”, “İnsanlıq fəlsəfəsi”
- “Elçilər qayıtdı”, “Bostan oğrusu”
- “Pillələr”, “Xoşbəxtlik barəsində”

34. M.C.Paşayevin bu əsəri satirik şair M.Ə.Sabirə həsr olunub:
- “Açıq kitab”
- “Dağlar dilə gəldi”
- “Yolumuz hayanadır”
- “Diilən adam”
- “Yaşıdlarım”

35. İ.Əfəndiyevin ilk hekayələr kitabı:
- “Üçatılan”
- “Kənddən məktublar”
- “Söyüdlü arx”
- “Unuda bilmirəm”
- “Aydınlıq gecələr”

36. “Oqtay Eloğlu” əsəri ilə bağlı səhv fikri göstərin:
- Aslan bəy Firəngizi şəxsi mənafeyinə qurban verir
- Mühitə zəmanəyə etiraz motivi əsərdə aparıcıdır
- Xalq və xalqa münasibət mövzusu pyesin əsas leytmotivini təşkil edir
- 6 pərdədən ibarət romantik faciədir
- Oqtaya qarşı duran aşkar bir cəbhə yoxdur

37. H.Cavidin əsərlərindən hansı poema janrındandır?
- “Maral”
- “Azər”
- “Peyğəmbər”
- “Şeyda”
- “Ana”

38. Aşağıdakılardan biri Represiya ədəbiyyatının nümayəndəsidir:
    - M.Müşfiq
    - R.Rza
    - C.Cabbarlı
    - S.Rüstəm
    - S.Vurğun
39. Ə. Cavadın “Səsli qız” əsəri ilə bağlı yanlış fikri seçin:
    - Saranın nişanlısı döyüşdə düşmən ordusu tərəfindən oxlanıb öldürülür
    - Əsərdə vahid süjet xətti yoxdur, müstəqil hissələrdən ibarətdir
    - Saranı qalib şahın yanına planlı olaraq göndərirlər ki, şahı zəhərləsin
    - Padişahın ölümündən sonra xalq üsyan edir, işğalçıları qovur
    - Poemanın əsas ideyası vətənin müdafiəsi, xalqın azadlığıdır
40. H.Cavidin dramaturgiyaları ilə bağlı uyğunsuzluğu göstərin:
    - “Səyavuş” mənzum faciədir
    - “Maral” nəsrlə yazılmış pyesdir
    - “Knyaz” mənzum pyesdir
    - “Ana” mənzum faciədir
    - “Topal Teymur” mənzum dramdır
41. C. Məmmədquluzadənin tragikomediyalarını müəyyən edin: 1.“Ölülər”, 2.“Kamança”, 3.“Anamın kitabı”, 4.“Danabaş kəndinin məktəbi”, 5.“Dəli yığıncağı”, 6.“Çay dəstgahı”, 7.“Oyunbazlar”, 8.“Kişmiş oyunu”.
    - 1,3,5
    - 2,4,6
    - 3,5,8
    - 2,5,7
    - 4,6,8
42. M.Ə.Sabirin şeirləri kimlər tərəfindən “Hophopnamə” adı ilə kitab halında nəşr edilmişdir?
    - Əbdürrəhim bəy Haqverdiyev, Əhməd Cavad
    - Cəlil Məmmədquluzadə, Hüseyn Cavid
    - Abdulla Şaiq, Əli Nəzmi
    - Mirzəli Möcüz, Əliqulu Qəmküsar
    - Abbas Səhhət, Mahmud bəy Mahmudbəyov
43. Bunlardan biri Ə.Cavadın əsəridir?
    - “Bu gün”
    - “Bir may”
    - “Küləklər”
    - “Çırpınırdı Qara dəniz”
    - “Səttarxana”
44. Azərbaycan sovet ədəbiyyatının 20-30-cu illərinə xas olan xüsusiyyətlərə aid edilə bilməz.
    - Milli tarixi mövzu və ideyalara yer verilmirdi
    - Sovet cəmiyyətinin nöqsanlarından danışmaq, fərdi yaşantıları əks etdirmək qadağan edilirdi
    - Azərbaycançılığın əsas əlaməti olan türkçülük, millətçilik hesab olunurdu
    - Türkçülüyün və cümhuriyyətçiliyin tərənnümü artır, siyasi –publisistik şeirin meydanı genişlənirdi
    - Sinfi mənafelərin mübarizəsindən danışılır, vulqar beynəlmiləlçilik təbliğ olunurdu
45. Əhməd Cavadın Cümhuriyyət dövründə yazdığı “Dalğa” kitabına daxil olan şeirlər: 1.“Can Azərbaycan”, 2.“Al bayraq”, 3.“Qafqazlısan,sev Qafqazı!”, 4.“Unudulmaz sevda”, 5.“Qardaş”, 6.“Nə yazım?”.
    - 1,3,5
    - 3,4,5

- 1,2,5
- 2,4,6
- 3,4,6

46. Məntiqi ardıcıllığı müəyyən edin: Söhrab Tahir, M. Gülgün, Hükumə Bülluri .......... .
    - Balaş Azəroğlu
    - Ə. Hüseynzadə
    - Almaz İldırım
    - Ümbülgülsüm
    - Osman Sarıvəlli
47. B.Vahabzadənin dram əsərlərini müəyyən edin.
    - “Atılmışlar”, “Xəzan bülbülü”
    - “Xəzan bülbülü”, “Şəhidlər”
    - “Ağlar-güləyən”, “Latın dili”
    - “Özümüzü kəsən qılınc”, “Yollara iz düşür”
    - “Qiymət”, “Təzadlar”
48. Çingiz Aytmatovun həyat və yaradıcılığı ilə bağlı verilənlərdən biri yanlışdır:
    - Hər üç ədəbi növdə bədii əsərlər yazmışdır
    - Yazıçı ədəbiyyatda sovet adamını deyil, sadəliyi, təbiliyi ilə seçilən insanları təsvir etmişdir
    - 1952-ci ildə ilk hekayələri nəşr olunmuşdur
    - 3 il Qırğızstanın Maldarlıq Elmi-Tədqiqat İnstitutunda işləyib
    - 10 iyun 2008-ci ildə Almaniyanın Nürnberq şəhərində müalicə aldığı klinikada vəfat edib
49. C.Məmmədquluzadənin “Anamın kitabı” tragikomediyasında qadın obrazları:
    - Zəhrabəyim, Gülbahar
    - Nazlı, Kərbəlayı Fatma
    - Zeynəb, İzzət, Şərəf
    - Səadət, Mələk, Sona
    - Kərbəlayı Fatmanisə, Zeynəb
50. Mollanəsrəddinçilərlə bağlı səhv cavabları seçin: 1.XX əsrin əvvəllərində ədəbi məktəb yaratmışdılar. 2.Hacı Zeynalabdın Tağıyevin ianəsi ilə nəşr olunan “Molla Nəsrəddin” jurnalının ətrafında toplaşmışdılar. 3.M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar bu ədəbi məktəbin nümayəndələri idi. 4.Onlar romantizmə üstünlük verirdilər. 5.Jurnalın səhifələrində satirik şer, hekayə, felyetonlara və gülməli xəbərlərə geniş yer verilirdi.
    - 2,5
    - 3,5
    - 2,4
    - 1,3
    - 1,4
51. Aşağıdakılardan biri C.Məmmədquluzadəyə aid edilə bilməz:
    - Satirik publisistikanın banisi olması
    - Qəzet redaktoru olması
    - Kiçik hekayənin böyük ustadı olması
    - Tarixi faciə janrının əsasını qoyması
    - Mənzum pyes müəllifi olması
52. H.Cavid neçənci ildə və harada anadan olmuşdur?
    - 1882-ci ildə Naxçıvanda
    - 1888-ci ildə Şamaxıda
    - 1892-ci ildə Şəmkirdə
    - 1895-ci ildə Şəkidə
    - 1866-cı ildə Gəncədə

53. M.Şəhriyarın hansı poemasında İkinci dünya müharibəsi ilə bağlı hadisələrə yer verilmişdir?
    - "Stalinqrad qəhrəmanları"
    - "Qardaşım oğlu Huşəngə"
    - "Nişapurda günəş batarkən"
    - "Gözüm aydın"
    - "Şeir və hikmət"
54. Mir Cəlalın həyat və yaradıcılığı ilə bağlı hansı fikir doğru deyil?
    - 100 illik yubileyi YUNESKO səviyyəsində qeyd olunmuşdur
    - Ali təhsilini Bakıda, aspirantura təhsilini isə Kazanda almışdır
    - Hekayələrində yumor üstünlük təşkil edir
    - Yaşıdlarım romanı avtobioqrafik əsəri hesab olunur
    - 26 aprel 1908-ci ildə Cənubi Azərbaycanda anadan olub
55. İ.Şıxlı bu görkəmli şəxsin məsləhəti ilə təhsilini Pedaqoji İnstitutda davam etdirir:
    - S.Rəhimovun
    - R.Rzanın
    - M.Hüseynin
    - S.Vurğunun
    - M.İbrahimovun
56. B. Vahabzadə yaradıcılığı haqqında verilən səhv fikri müəyyən et:
    - "Xəzan bülbülü" poemasını hələ orta məktəbdə oxuyarkən yazıb
    - İlk mətbu əsəri "Ana və şəkil" olmuşdur
    - Yaradıcılığında R.Rza ədəbi məktəbinin davamçısıdır
    - "Gülüstan" poemasını Şəkidə çıxan Nuxa fəhləsi qəzetində 1959-cu ildə dərc etdirir
    - Bədii yaradıcılığı lirik epik və dramatik növdə yazdığı əsərlərdən ibarətdir
57. C.Məmmədquluzadə yaradıcılığa hansı əsəri ilə başlamışdır?
    - "Ölülər"
    - "Dəli yığıncağı"
    - "Danabaş kəndinin əhvalatları"
    - "Kamança"
    - "Çay dəsgahı"
58. Maarifçi realistlər: 1.N.Nərimanov, 2.S.M.Qənizadə, 3.Ə.Haqverdiyev, 4.S.S.Axundov, 5.Ö.F.Nemanzadə, 6.R.Əfəndiyev, 7.Ə.Q.Naxçıvanlı, 8.A.Divanbəyoğlu.
    - 3,4,5,8
    - 1,2,4,6
    - 1,4,5,7
    - 2,4,6,7
    - 4,5,7,8
59. H.Cavidin şeirlərdən ibarət kitablarını müəyən edin: 1."Keçmiş günlər" 2."Maral " 3."Bahar şəbnəmləri" 4."Çiçək sevgisi" 5."Bir ahi-məzlumanə"
    - 1,4
    - 2,5
    - 1,3
    - 4,5
    - 2,3
60. İ.Şıxlının yaradıcılığı ilə bağlı səhv fikri müəyyən edin.
    - "Ayrılan yollar" hekayə janrında yazılmışdır
    - Yaradıcılığının şah əsəri "Dəli Kür" romanıdır
    - İlk nəşr olunan əsəri lirik növdədir
    - Bədii yaradıcılığa şeirlə başlamışdır

- "Cəbhə gündəlikləri" əsəri əsgər qeydləri əsasındadır

61. M.Ə.Sabirin müəllimi olmuş, onun bədii yaradıcılığa istiqamətləndirilməsində böyük rolu olan sənətkar:
    - C.Məmmədquluzadə
    - A.Səhhət
    - M.Ə.Möcüz
    - S.Ə.Şirvani
    - M.Ş.Vazeh
62. M.Ə.Sabir yaradıcılığına aid edilə bilməz:
    - mərsiyə
    - qəzəl
    - uşaq şeirləri
    - satira
    - qoşma
63. Şəhriyarın ana dilində yazdığı poemalarına aiddir: 1."Səhəndiyyə", 2."Stalinqrad qəhrəmanları", 3."Şeir və hikmət", 4."Heydərbabaya salam", 5."Qardaşım oğlu Huşəngə", 6."Gecənin əfsanəsi", 7."Nişapurda günəş batarkən".
    - 6,7
    - 2,4
    - 3,5
    - 1,4
    - 5,7
64. H.Cavidin "İblis" mənzum faciəsi neçə pərdədən ibarətdir?
    - 4
    - 3
    - 5
    - 6
    - 7
65. Mir Cəlalın mətbuatda dərc olunan ilk əsəri hansıdır?
    - "Bostan oğrusu"
    - "Sağlam yollarda"
    - "Sadə hekayələr"
    - "Mətləb hekayələri"
    - "Həyat hekayələri"
66. Bu əsərlərdən biri R.Rzanın müharibə mövzusunda yazdığı poemadır:
    - "Haray dostlar"
    - "Almaniya"
    - "Bəxtiyar"
    - "Min dörd yüz on səkkiz"
    - "Cəlladları durdur"
67. İ.Şıxlının yaradıcılığı ilə bağlı səhv fikri müəyyən edin.
    - Yaradıcılığında roman janrı mühüm yer tutur
    - Nəşr olunan ilk əsəri "Quşlar" şeiridir
    - Yaradıcılığında müharibə mövzusu da yer alıb
    - Lirik, epik, dramatik növlərdə yazıb
    - Yaradıcılığının şah əsəri "Dəli Kür" romanıdır
68. B.Vahabzadənin hansı əsəri xalqımızın istiqlal və azadlıq uğrunda apardığı mübarizəyə həsr olunub.
    - "Gülüstan"
    - "Yollara iz düşür"
    - "Şəhid məzarları"

- “Yağışdan sonra”
- “Şəhidlər”

69. M. Ə. Sabirin ictimai-siyasi məzmunlu şeirlərini müəyyən edin: 1.“Var”, 2.“Ruhum”, 3.“Dindirir əsr bizi”, 4.“Səttərxana”, 5.“Ürəfa marşı”, 6.“Fəxriyyə”, 7.“İstiqbalımız lağlağıdır”.
    - 1,3,7
    - 2,4,6
    - 3,4,5
    - 2,5,7
    - 1,5,6
70. C.Məmmədquluzadə bədii yaradıcılığa nə vaxt və harada başlamışdır?
    - 1922-30-cu illərdə, Bakıda yaşadığı dövrdə
    - XX əsrin əvvələrində, Tiflisdə “Molla Nəsrəddin” jurnalının redaktoru olarkən
    - XIX əsrin sonlarında, Qori seminariyasında oxuduğu illərdə
    - XX əsrin əvvələrində, Təbrizdə olarkən
    - XIX əsrin sonunda, Naxçıvanda, Baş Noraşen məktəbində müəllim işləyərkən
71. Verilmiş şeir parçasının müəllifi kimdir? Daş qəlbli insanları neylərdin, İlahi?! Bizdə bu soyuq qanları neylərdin, İlahi?!
    - M.Ə.Sabir
    - S.Ə.Şirvani
    - A.Səhhət
    - H.Cavid
    - C.Məmmədquluzadə
72. C.Cabbarlının bu əsərində qadın azadlığı, müstəqilliyi və özünütəsdiqi dramın əsas mövzusudur.
    - “Oqtay Eloğlu”
    - “Almaz”
    - “Solğun çiçəklər”
    - “Vəfalı Səriyyə”
    - “Sevil”
73. S.Vurğunun “Vaqif” dramında həyatın sınağından şərəflə çıxa bilməyən, saray intriqalarının qurbanı olan surət:
    - Tükəzban
    - Gülnar
    - İbrahim xan
    - Qaçar
    - Xuraman
74. C.Cabbarlı bu əsəri ilə öz mənəvi böhranını tamamlamışdır:
    - “Yaşar”
    - “Ədirnə fəthi”
    - “Sevil”
    - “Od gəlini”
    - “Almaz”
75. Ə.Cavadın Xalq Cümhuriyyətinin süqutundan sarsılaraq yazdığı şeirlərinə aiddir: 1.“Can Azərbaycan”, 2.“Nə yazım?”, 3.“Qafqazlısan, sev Qafqazı”, 4.“Unudulmuş sevda”, 5.“Olsun qoy”, 6.“Azərbaycan bayrağına”.
    - 2,3,6
    - 1,3,5
    - 2,5,6
    - 1,4,6
    - 2,4,5

76. Biri C.Məmmədquluzadə yaradıcılığına aid edilə bilməz:
- Povest və hekayələr
- Satirik hekayələr
- Tragikomediya və kiçik pyeslər
- Lirik şeirlər və poemalar
- Publisist məqalələr və felyetonlar

77. M. Ə. Sabir bədii portret yaratmaq qabiliyyətini hansı sahədə ustalıqla nümayiş etdirmişdir?
- Satirik şeir yaradıcılığında
- Mənzum hekayələrində
- Uşaq şeirlərində
- İctimai-siyasi şeirlərində
- Qəzəllərində

78. Biri sovet dövrü Azərbaycan ədəbiyyatı nümayəndələri sırasında verilə bilməz.
- S.Rüstəm
- M.Ə.Sabir
- C.Cabbarlı
- M.Hüseyn
- S.Vurğun

79. C.Cabbarlının tarixi pyesləri sırasında verilə bilməz:
- “Trablis müharibəsi”
- “Od gəlini”
- “Ədirnə fəthi”
- “Dönüş”
- “Nəsrəddin şah”

80. S. Vurğunun pyeslərini yazılma ardıcıllığı ilə düzün: 1.“Fərhad və Şirin”, 2.“İnsan”, 3.“Vaqif”, 4.“Xanlar”.
- 1,2,3,4
- 4,3,2,1
- 3,4,2,1
- 3,4,1,2
- 3,1,4,2

81. Füyuzatçılarla bağlı doğru cavabı seçin: 1.Romantizm ədəbi məktəbini yaratmışdılar. 2.Ə.Haqverdiyev, C.Məmmədquluzadə, Ə.Qəmküsar, M.Ə.Sabir bu ədəbi məktəbin nümayəndələri idi. 3.Sonet, marş, türkü kimi janrları Azərbaycan ədəbiyyatına gətirmişdilər. 4.“Füyuzat” jurnalının ətrafında toplaşmışdılar. 5.Cəmiyyətdə olan nöqsanları tənqid edən əsərlər yazırdılar.
- 3,4
- 2,5
- 1,2,5
- 1,3,4
- 1,4,5

82. C.Məmmədquluzadə ədəbiyyatımızda hansı fəaliyyəti ilə məşhurlaşmışdır?
- Tənqidi-realizmin, mollanəsrəddinçilik hərəkatının başçısı kimi
- Komediya janrının əsasını qoyan kimi
- Dram janrının əsasını qoyan kimi
- Realizm cərəyanının banisi kimi
- Alleqorik poemaların əsasını qoyan yazıçı kimi

83. Cənubi Azərbaycandan Sovet Azərbaycanına mühacirət etmiş şairlər olan variantı müəyyələşdirin: 1.Almaz İldırım, 2.Mədinə Gülgün, 3.Şəhriyar, 4.Hökümə Bülluri, 5.Balaş Azəroğlu, 6.Ümbülgülsüm, 7.Söhrab Tahir.
    - 1,4,6
    - 1,3,5,7
    - 2,3,6
    - 2,4,5,7
    - 3,4,6
84. M.Ə.Sabir üslubunda yazanlar arasında Sabir ədəbi məktəbinin davamçıları kimlər idi?
    - Məhəmməd Hadi
    - Əli Nəzmi, Mirzə Əli Möcüz
    - Abbas Səhhət, H. Cavid
    - Abdulla Şaiq
    - Məmməd Səid Ordubadi
85. S.Vurğunun şeir kitablarını yazılma ardıcıllığı ilə düzün: 1.Şeirlər, 2.Könül dəftəri, 3.Fanar, 4.Şairin andı.
    - 4,3,2,1
    - 1,2,3,4
    - 3,2,4,1
    - 2,4,1,3
    - 4,2,3,1
86. Mir Cəlalın satirik hekayələri sırasında verilə bilməz:
    - “Şaftalı söhbəti”
    - “İclas qurusu”
    - “Ləyaqət”
    - “Həkim Cinayətov”
    - “Qoltuq radiosu”
87. B.Vahabzadənin nəzmlə yazılan dram əsəri hansıdır?
    - “Yollara iz düşür”
    - “Vicdan”
    - “İkinci səs”
    - “Yağışdan sonra”
    - “Fəryad”
88. R.Rzanın “Qızılıgül olmayaydı” poeması ilə bağlı fikirlərdən biri səhvdir?
    - Poemada Dilbərə təskinlik verən şairə obrazı var
    - Əsərdə bir çox ədiblərin repressiyaya məruz qalmasından söhbət açılır
    - Dostların ilk tanışlığı “Gənc işçi” də olur
    - Əsər M.Müşfiqin faciəvi həyatına həsr olunub
    - Poema heca vəznində yazılmışdır
89. M. Ə. Sabirin Yaxın və Orta Şərq ölkəsində qüdrətli xalq şairi kimi şöhrət tapmasında hansı mətbuat orqanı xüsusi rol oynamışdır?
    - “Molla Nəsrəddin”
    - “Füyuzat”
    - “Zənbur”
    - “Babayi-əmir”
    - “Həyat”
90. H.Cavidin “İblis” pyesində Rənanın atasının qatili:
    - İxtiyari qoca
    - Yaralı zabit

- Arif
- Elxan
- İbn Yəmin

91. “Oqtay Eloğlu” əsərinin məzmunu ilə bağlı səhv cavabı göstərin.
    - Xalq və xalqa münasibət mövzusu pyesin əsas leymotivini təşkil edir
    - Əsər romantik faciədir və 6 pərdədən ibarətdir
    - Əsərin ideya daşıyıcısı və qəhrəmanı Oqtaydır
    - Əsərin sonunda Oqtay saxta sandığı Firəngizi öldürməklə yaddaşındakı həqiqi Firəngizi yaşadır
    - Oqtay Firəngizdən ayrılmaq üçün Aslan bəyin verdiyi pulu qəbul edir
92. C.Cabbarlının ilk tarixi dramı hansıdır?
    - “Od gəlini”
    - “Nəsrəddin şah”
    - “Trablis müharibəsi”
    - “1905-ci ildə”
    - “Ədirnə fəthi”
93. Biri C.Məmmədquluzadənin pyesləri sırasında verilə bilməz:
    - “Kişmiş oyunu”
    - “Poçt qutusu”
    - “Ölülər”
    - “Kamança”
    - “Çay dəsgahı”
94. “Açıq kitab” romanının mövzusu ilə bağlı doğru olan fikri müəyyən et:
    - Əsas hadisələrin Cənubi Azərbaycanda baş verdiyi təsvir olunur
    - XIX əsrin sonlarında Azərbaycan kəndlisinin ümumiləşdirilmiş taleyi əks olunmuşdur
    - Azərbaycan insanının tale romanı adlanır
    - Yüksək ideya-bədii keyfiyyətləri ilə seçilən satirk romandır
    - C.Məmmədquluzadənin, N.Nərimanovun obrazları əsərdə yer alıb
95. Çingiz Aytmatovun “Gün var əsrə bərabər” əsərinin məzmunu ilə bağlı verilənlərdən biri yanlışdır.
    - Əsər Sovet İmperiyasının dağılmasından bəhs edir
    - Dəfn mərasiminin təsvirində türk xalqlarının mərhumla vidalaşmaq ayini öz əksini tapır
    - Vəfat etmiş dostunun vəsiyyətinə əməl edərək onu Ana-Beyitə aparan Yedigey hər bir hadisəyə insanlıq və vicdan meyarı ilə yanaşır
    - Yazıçı Sabitcanın, Tansıkbayevin simalarında öz dilini, adət-ənənələrini unudanlara öz nifrətini bildirir və onları manqurt adlandırır
    - Əsərin sonunda Nayman-Ananın yaylığının ağ quşa çevrilməsi gələcəyə nikbin baxmağın vacibliyini ifadə edir
96. İ.Şıxlı bu əsərində özünün proobrazını yaratmışdır.
    - “Namərd gülləsi”
    - “Məni itirməyin”
    - “Ayrılan yollar”
    - “Cəbhə gündəlikləri”
    - “Dəli Kür”
97. Azərbaycanda romantizm ədəbi cərəyanının mətbuat orqanı hansıdır?
    - “Molla Nəsrəddin”
    - “Füyuzat”
    - “Həyat”
    - “Açıq söz”
    - “Həqiqət”

98. Biri C.Məmmədquluzadənin hekayələri sırasında verilə bilməz:
- “Qurbanəli bəy”
- “Ölülər”
- “Poçt qutusu”
- “Usta Zeynal”
- “Konsulun arvadı”

99. İ. Əfəndiyevin avtobioqrafik xarakterli əsərlərini müəyyən edin.
- “Mahnı dağlarda qaldı”, “İntizar”
- “Büllur sarayda”, “Unuda bilmirəm”
- “Söyüdlü arx”, “Körpüsalanlar”
- “Üçatılan”, “Geriyə baxma qoca”
- “Sarıköynəklə Valehin nağılı”, “Dağlar arxasında”

100. R.Rzanın nəsr əsərləri verilən sıranı müəyyən edin.
- “Dilarə”, “Uxajar”, “Oğul qatili”
- “Qızılgül olmayadı”, “Madrid”
- “Həbəşistan”, “Haray dostlar”
- “Yaman qonşu”, “Alicənabov dedi”
- “Mığmığalar”, “Cəlladları durdur”

101. Mirzə Ələkbər Sabir anadan olmuşdur:
- 1892-ci ildə Naxçıvanda
- 1861-ci ildə Şuşada
- 1869-cu ildə Şəmkirdə
- 1862-ci ildə Şamaxıda
- 1882-ci ildə Şəkidə

102. “Uşaq və buz”, “Yaz günləri”, “Yalançı çoban” adlı uşaq şeirlərinin müəllifi kimdir?
- Ə.Cavad
- A.Şaiq
- A.Səhhət
- H.Cavid
- M.Ə.Sabir

103. Represiya ədəbiyyatının nümayəndələri verilmiş variantı müəyyən edin: 1.H.Cavid, 2.R.Rza, 3.Ə.Cavad, 4.S.Rüstəm, 5.M.Gülgün, 6.M.Müşfiq.
- 1,4,6
- 2,4,5
- 1,2,4
- 3,6
- 1,3,6

104. C.Məmmədquluzadənin tərcümeyi-hal faktlarının düzgün ardıcıllığını müəyyənləşdirin: 1.Qori Müəllimlər Seminariyasında təhsil almışdır. 2.İrəvan və Naxçıvanda hüquq orqanlarında çalışmışdır. 3.Baş Noraşendə müəllimlik etmişdir. 4.Tiflisdə “Şərqi-Rus” qəzetinin redaksiyasında çalışmışdır.
- 4,2,1,3
- 2,3,4,1
- 1,3,2,4
- 2,4,3,1
- 3,1,4,2

105. Məntiqi ardıcıllığı tamamlayın: C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev ........... .
- M.Hadi
- H.Cavid
- Ə.Qəmküsar

- A.Səhhət
- Ə.Hüseynzadə

106. “Açıq kitab” romanının məzmunu ilə bağlı yanlış olanı müəyyən et:
- Əsərdə Kərim Gəldiyevin mənəvi faciəsi sovet cəmiyyətinin daxili puçluğu kimi ifadə olunur
- İkiüzlü rəyasət düşkünləri tənqid edilir
- Cəmiyyətdə saflığın, düzlüyün, həqiqətin bərqərar olmasının zəruriliyi romanda qırmızı xətt kimi keçir
- Əsərdə ədalətsizlik prinsipləri əsasında qurulmuş ali məktəb mühiti sovet cəmiyyətində gedən ictimai nöqsanları ifşa edir
- Əsər mənəvi varislik məsələlərinə həsr olunub

107. Bu şairi cumhuriyyət nəğməkarı adlandırırlar.
- R.Rza
- S.Vurğun
- Ə.Cavad
- S.Rüstəm
- M.Müşfiq

108. Bu şeir R. Rzanı ədəbiyyat aləmində tanıtdırmış və onun yaradıcılıq manifesti kimi qiymətləndirilir:
- “Bu gün”
- “Çapey”
- “Bolşevik yazı”
- “Çinar”
- “Vətən”

109. Romantizm ədəbi cərəyanın nümayəndələri: 1.M.Hadi, 2.M.Ə.Sabir, 3.H.Cavid, 4.Ə.Qəmküsar, 5.Ə.Nəzmi, 6.A.Səhhət, 7.M.Möcüz, 8.Ə.Hüseynzadə.
- 3,4,5,6
- 1,6,7
- 1,3,6,8
- 2,5,6
- 3,4,5,8

110. C.Məmmədquluzadənin “Anamın kitabı” əsəri ilə bağlı səhv fikirləri müəyyən edin: 1.Qardaşların əqidəsi Gülbahar üçün qəbul edilməzdir. 2.Əsərdə müstəqillik, milli birlik, soykökünə bağlılıq məsələləri qaldırılmışdır. 3.Qardaşları xalqın taleyi narahat edir. 4.Qardaşlar anaları Zəhrabəyimin arzusuna uyğun olaraq ali təhsil almışdır. 5.Qardaşlar vətənlərində kamil mütəxəssis kimi fəaliyyət göstərirlər.
- 1,2,3
- 1,2,5
- 1,3,4
- 2,4,5
- 3,4,5

111. Biri C.Cabbarlının pyesləri sırasında verilə bilməz:
- “Vəfalı Səriyyə”
- “Almaz”
- “Mənsur və Sitarə”
- “Solğun çiçəklər”
- “Aydın”

112. Bu əsərlərdən birində xalq məişətinin, el adət-ənənələrinin təsvirinə geniş yer verilmişdir?
- B.Vahabzdə “Latın dili”
- R.Rza “Qızılgül olmayaydı”

- M.Şəhriyar “Heydərbabaya salam”
- S.Vurğun “Aygün”
- S.Rüstəm “Təbrizim”

113. Mir Cəlalın romanları sırasında verilə bilməz:
- “Açıq kitab”
- “Yolumuz hayanadır”
- “Bir gəncin manifesti”
- “Yaşıdlarım”
- “Pillələr”

114. İ.Şıxlınının “Dəli Kür” əsərinə aid edilə bilməz:
- Xalq adət-ənənələrinin təsvirinə geniş yer verilir
- Əsəri cəbhədə apardığı qeydləri əsasında yazıb
- Doğma təbiət obraz səviyyəsinə qaldırılır
- Epik miqyaslı tarixi romandır
- Güclü müasirlik duyğusu ilə yazılmışdır

115. İ.Şıxlının “Dəli Kür” romanındakı hansı obrazla bağlı fikir yanlışdır?
- Zərnigar – hiyləgər, yaltaq, xəyanətkar obrazdır
- Şamxal – qürurlu əyilməz cəsarətli bir gəncdir
- Cahandar ağa – başqasından tələb etdiyi namus və qeyrətin timsalı ola bilmir
- Molla Sadıq – yeniliyin, təhsilin əleyhdarı kimi əks etdirilib
- Əşrəf – yeniliyi təcəssüm etdirən gəncliyin nümayəndəsidir

116. Mir Cəlalın bu əsərində N.Nərimanovun, C.Məmmədquluzadənin, A.Səhhətin obrazları yer almışdır:
- “Yolumuz hayanadır”
- “Təzə şəhər”
- “Yaşıdlarım”
- “Açıq kitab”
- “Dirilən adam”

117. “Türkün dili tək sevgili, istəkli dil olmaz, Şair ola bilməzsən, anan doğmasa şair!”. “Türkün dili” adlı şeirdən götürülmüş bu misraların müəllifini göstərin:
- H.Cavid
- M.Hadi
- M.Müşfiq
- A.İldırım
- M.Şəhriyar

118. R.Rzanın dramatik növdə yazdığı əsəri hansıdır?
- “Vəfa”
- “Pilot qardaş”
- “Qızılgül olmayaydı”
- “İntiqam!”
- “Bəxtiyar”

119. İ.Əfəndiyevin bu pyesi ilə dramaturgiyamıza lirik-psixoloji üslub gəldi:
- “Unuda bilmirəm”
- “Büllur sarayda”
- “Sən həmişə mənimləsən”
- “Şeyx Xiyabani”
- “Atayevlər ailəsi”

120. “Şair, nə tez qocaldın sən”, “Mən tələsmirəm” şeirlərinin müəllifi kimdir?
- Səməd Vurğun

- Hüseyn Cavid
- Aşıq Ələsgər
- Süleyman Rüstəm
- Rəsul Rza

121. C.Məmmədquluzadənin yaradıcılığına aid dram əsərlərini (pyesləri) seçin: 1.“Poçt qutusu”, 2.“Anamın kitabı”, 3.“Usta Zeynal”, 4.“Kamança”, 5.“Ölülər”, 6.“Konsulun arvadı”.

- 4,5,6
- 1,3,5
- 2,4,5
- 1,3,6
- 1,2,5

122. Tənqidi realizm cərəyanın nümayəndələri: 1.C.Məmmədquluzadə, 2.M.Hadi, 3.Ə.Haqverdiyev, 4.A.Şaiq, 5.Ə.Qəmküsar, 6.H.Cavid, 7.Ə.Nəzmi, 8.A.Səhhət.

- 1,4,7,8
- 2,4,6
- 1,3,5,7
- 3,5,8
- 2,6,7

123. Füyuzatçılarla bağlı səhv cavabı seçin: 1.Tənqidi realizmin əsasını qoymuşdular. 2.Mənsub olduqları bədii yaradıcılıq metodu romantizm adlanır. 3.Felyeton, satirik marş, taziyanə kimi janrları ədəbiyyata gətirmişlər. 4.Bütün türk dünyasını mədəni-siyasi tərəqqi yoluna çıxarmaq istəyirdilər. 5.Dil və üslublarında müəyyən bir təntənə, təmtəraq hiss olunurdu.

- 3,5
- 2,5
- 1,4
- 1,3
- 2,4

124. H.Cavidin tarixi mövzuda yazdığı pyes:

- “Şeyda”
- “Ana”
- “Topal Teymur”
- “Afət”
- “Maral”

125. “R.Rza ədəbi məktəbi” şairin hansı yaradıcılığı ilə əlaqədardır:

- Şihafi xalq ədəbiyyatını yazılı ədəbiyyata gətirməsi ilə
- Əruz vəzni Azərbaycan ədəbiyyatına gətirməsi ilə
- Publisistik yazılardan istifadə etməsi ilə
- Heca vəznini inkişaf etdirməsi ilə
- Sərbəst vəzni Azərbaycan ədəbiyyatına gətirməsi ilə

126. Bəndlərdən birini seçməklə S.Vurğunun tarixi mövzuda yazılmış poemaların sırasını davam etdirin: “Macəra”, “Dar ağacı”, .......... . 1.Üsyan, 2.Bulaq əfsanəsi, 3.Qız qayası, 4.Zamanın bayraqdarı, 5.Aygün.

- 2,5
- 1,3
- 4,5
- 2,3
- 1,4

127. B.Vahabzadənin hansı əsərləri həm simvolik, həm də müstəqim məna daşıyır?

- Sovet dövründə yazdığı poemaları

- Nəsrlə yazdığı dramları
- Mənzum dramları
- Tələbə ikən yazdığı şeirləri
- Müstəqillik dövründə yazdığı şeirləri

128. Bir boynu olsaydı bəşəriyyətin, Onu bir qılıncla vurardım, yəqin,- misraları S.Vurğunun “Vaqif” pyesində hansı obrazın dili ilə verilir?

- İbrahim xan
- Qacar
- Eldar
- Kürd Musa
- Vaqif

129. Ə.Cavadın “Səsli qız” poemasının əsas ideyası nədir?

- qadın hüquqsuzluğu
- saf məhəbbətin tərənnümü
- azadlıq uğrunda mübarizənin tərənnümü
- qadın azadlığı
- sovet quruculuğunun tərənnümü

130. “Anamın kitabı” tragikomediyasının əsas ideyası nədir?

- torpağa məhəbbət
- təbiətə məhəbbət
- cəhalət və gerilik
- qıza məhəbbət
- vətənə, ana dilinə məhəbbət

131. H. Cavidin hansı əsərinin mövzusu I Dünya müharibəsinə həsr olunmuşdur?

- “Ana”
- “Səyavuş”
- “Maral”
- “Şeyda”
- “İblis”

132. M.Şəhriyarın “Nişapurda Günəş batarkən”, “Qardaşım oğlu Huşəngə”, “Gecənin əfsanəsi” əsərlərini birləşdirən cəhət:

- tərcümeyi-hal səciyyəli olması
- Şimali Azərbaycan məsələsinə yer verilməsi
- satirik mövzuda yazılmaları
- “Varlıq” dərgisində dərc olunmaları
- insanları qardaşlığa, xeyirxah əməllərə çağırış motivlərinin olması

133. İ.Şıxlının hansı hekayəsi müharibə mövzusundadır?

- “Sapı özümüzdəndir”
- “Kerç sularında”
- “Məleykə xala”
- “Mənim rəqibim”
- “Ayrılan yollar”

134. Azərbaycan ədəbiyyatında tənqidi realizm ədəbi cərəyanının mətbuat orqanı hansıdır?

- “Füyuzat”
- “Molla Nəsrəddin”
- “Zənbur”
- “Babayi-əmir”
- “Leylək”

135. Bu şeirlərdən birini R. Rza heca vəznində yazıb:

- “Rənglər”
- “Çinar”
- “Bolşevik yazı”
- “Mən torpağam”
- “Bu gün”

136. Dramaturgiyamızda lirik-psixoloji dram janrının ilk nümunəsini kim yaradıb?

- Səməd Vurğun
- İsmayıl Şıxlı
- Mir Cəlal
- Rəsul Rza
- İlyas Əfəndiyev

137. C.Məmmədquluzadənin Qarabağ münaqişəsinə həsr etdiyi əsəri hansıdır?

- “Anamın kitabı”
- “Çay dəsgahı”
- “Danabaş kəndinin əhvalatı”
- “Dəli yığıncağı”
- “Kamança”

138. Aşağıdakı şeir parçası Şəhriyarın hansı əsərindəndir? Bir uçaydım bu çırpınan yelinən, Bağlaşaydım dağdan aşan selinən, Ağlaşaydım uzaq düşən elinən Bir görəydim ayrılığı kim saldı? Ölkəmizdə kim qırıldı, kim qaldı?

- “El bülbülü”
- “Qafqazlı qardaşlar ilə görüş”
- “Heydərbabaya salam”
- “Ayrılıq”
- “Səhəndiyyə”

139. Bu kitablardan biri İ.Şıxliya aid deyil:

- “Dəli Kür”
- “Məni itirməyin”
- “Daim axtarışda”
- “Namərd gülləsi”
- “Vicdan susanda”

140. C.Cabbarlının mövzu və ideya bağlılığı olan əsərləri: 1.“Aydın”, “Oqtay Eloğlu”, 2.“Vəfalı Səriyyə”, “Sevil”, 3.“Solğun çiçəklər”, “Almaz”, 4.“Trablis müharibəsi”, “Ədirnə fəthi”, 5.“Nəsrəddin şah”, “Od gəlini”, 6.“Yaşar”, “1905-ci il”.

- 2,3
- 2,5
- 1,3,6
- 1,4
- 2,4,5

141. Məntiqi ardıcıllığı tamamlayın: N.Nərimanov S.S.Axundov S.M.Qənizadə ............ .

- H.Cavid
- C.Məmmədquluzadə
- R.Əfəndiyev
- A.Sur
- M.Ə.Sabir

142. Ə.Cavadın “Səsli qız” poemasının baş qəhrəmanı kimdir?

- Sara
- Hökmdar

- Din xadimi
- Arqun
- Varlı adamlar

143. R.Rzanın satirik şeirləri sırasında verilə bilməz:

- "Xanım"
- "Alicənabov dedi"
- "Yaman qonşu"
- "Nə deyim sənə"
- "İnsan şəkli"

144. İ.Əfəndiyevin bu əsəri Azərbaycanın birliyi probleminə həsr olunmuş ilk dram əsəridir:

- "Unuda bilmirəm"
- "Mahnı dağlarda qaldı"
- "Şeyx Xiyabani"
- "Xurşudbanu Natəvan"
- "Hökmdar və qızı"

145. H.Cavidin "İblis" pyesində nəfs hansı obrazı iblisləşən bir qüvvəyə çevirir?

- Rənanı
- İxtiyari Şeyxi
- Arifi
- Xavəri
- Vasifi

146. "Trablis müharbəsi" və "Ədirnə fəthi" əsərləri üçün ortaq cəhətləri seçin. 1.Hər iki əsərin mövzusu Türkiyə həyatından alınmışdır. 2.Hər iki əsərdə Ənvər paşa obrazı yaradılmışdır. 3.Hər iki əsəri Xalq Cümhuriyyəti dövründə yazmışdır. 4.Hər iki əsərdə müəllifin Gənc Türklər inqilabına rəğbəti diqqəti cəlb edir. 5.Hər iki əsərdə Türkiyənin Balkanlarda apardığı hərbi əməliyyat təsvir olunur.

- 1,2,4
- 3,4
- 2,3,5
- 1,4
- 2,3,4

147. Əsərlərdən biri M.Cəlalındır:

- "Aynalı"
- "Saçlı"
- "Şamo"
- "Açıq kitab"
- "Mehman"

148. B.Vahabzadənin kitablarının nəşri tarixinə uyğun ardıcıllığını müəyyən et: 1."Sadə adamlar", 2."Mənim dostlarım", 3."Əbədi heykəl", 4."Ceyran".

- 1,2,4,3
- 2,3,1,4
- 1,2,3,4
- 4,3,1,2
- 1,2,3,4

149. R.Rzanın yaradıcılığı ilə bağlı səhv fikir hansıdır?

- Ədəbi növlərin hər üçündə əsərlər yazmışdır
- Əsərlərinin çox hissəsini sərbəst vəzndə yazmışdır
- Bütün əsərlərini nəzmlə yazmışdır
- Heca vəznində də bəzi şeirlər yazmışdır
- Bolşevik yazı şerindən sonra proletar məfkurəçisi olan şair kimi tanınmışdır.

150. İ.Əfəndiyevin “Xurşidbanu Natəvan” əsərində hadisələr hansı şəhərlərdə baş verir?

- Tiflis, Şuşa
- Şamaxı, Gəncə
- Bakı, Quba
- Astara, Ərdəbil
- Tiflis, Bakı